UOT 33.336

# TƏHSİL SƏNAYESİNİN MALİYYƏ MƏNBƏLƏRİ

**Mirdamət Famil oğlu Qədimov**
Dövlət Sosial Müdafiə Fondu
Azərbaycan Texniki Universitetinin doktorantı
mirdamat@list.ru
**https://doi.org/10.30546/SJSD.2025.5.1.015**

***Xülasə:*** *Təhsil sənayesini və əhalinin savadlıq səviyyəsini xarakterizə edən göstəricilər əsasən beynəlxalq müqayisəliliyi təmin etmək məqsədilə qəbul edilmiş kriteriyalara görə təsnifləşdirilir. Müqayisəlilik baxımından statistik göstəriciləri müəyyə edilməli olan əsas istiqamətlər sırasında təhsil sahəsinə ayrılmış xərcləri, əhalinin hər min nəfərinə düşən ali təhsillilərin sayını, 1 nəfərə düşən təhsil xərcini və s. göstərmək olar. Bu mənada təhsil sənayesinin beynəlxalq səviyyədə qəbul edilən maliyyələşdirmə mənbələrinin müəyyən edilməsi və tədqiq edilməsi də vacibdir. Belə ki, keyfiyyətli və səmərəli təhsilin əsasını güclü maliyyələşdirmə təşkil edir. Bu səbəbdən məqalədə dünyanın bir sıra ölkələrində və Azərbaycanda tətbiq edilən təhsil sahəsindəki maliyyələşdirmə mənbələrinin müqayisəli təhlili aparılmışdır.*
***Açar sözlər:*** *təhsil sənayesi, təhsilin maliyyə mənbələri, təhsil sistemi, özəl təhsil müəssisəsi, qrant layihələri*

## Giriş

Əhalinin layiqli həyat səviyyəsinin formalaşmasında təhsil sahəsi mühüm rol oynayır. Ümumilikdə isə əhalinin həyat səviyyəsini xarakterizə edən əsas göstəricilər kimi sosial rifahın yüksək olmasını, orta aylıq gəlirlərin çox olmasını, tibbi xidmətin ödənişsiz və əlçatan olmasını, beynəlxalq standartlara cavab verən təhsil sisteminin mövcud olmasını və s. göstərmək olar. Qeyd olunan göstəricilərin yüksək səviyyədə təmin edilməsi üçün ölkənin geniş iqtisadi potensiala malik olması əsas şərtlərdən biridir. Bununla yanaşı, iqtisadiyyatın inkişafı təkcə zəngin resurs potensialının, sərvətlərin mövcud olması ilə deyil, eyni zamanda həmin resurslardan səmərəli və məqsədyönlü istifadə olunmasında özünü daha çox göstərir. Belə ki, müasir dövrdə təbii sərvətlərə malik olmayıb, bütün sahələrdə (*hərbi, siyasi, iqtisadi, təhsil və s.*) sürətlə inkişaf edən ölkələrdə az deyil. Bunun əsas səbəbi həmin ölkələrin yüksək intellektə malik kadr potensialının və inkişaf etmiş təhsil sənayesinin olmasındadır.

Bundan başqa, qeyd olunmalıdır ki, ölkənin hərtərəfli inkişafı onun iqtisadi inkişafı ilə birbaşa bağlıdır. Çünki bütün sahələrdə qabaqcıl texnika və texnologiyanın, mütərəqqi təcrübənin tətbiq edilməsinin əsasında maliyyə vəsaiti dayanır. Bu mənada ölkələr iqtisadi cəhətdən müstəqil olmalıdır ki, onlar istədikləri formada əhalinin təhsilinin, sağlamlığının, sosial vəziyyətinin yaxşılaşdırılmasına xidmət edən siyasət apara bilsinlər.

## Təhsil sənayesinin inkişafında maliyyələşmə əsas amili kimi

Ölkələrin inkişafının xarakterizə olunmasında və beynəlxalq müqayisəliliyin təmin olunmasında təhsil göstəriciləri mühüm əhəmiyyət kəsb edir. Belə ki, əhalinin savadlılıq səviyyəsinin yüksəldilməsi və ibtidai təhsil proqramı üzrə minimum biliklərə əhalinin mütləq əksəriyyətinin yiyələnməsi beynəlxalq təşkilatların ölkələr qarşısında qoyduğu əsas hədəflərdən biridir. Heç təsadüfü deyildir ki, ölkəmizdə də əhalinin savadlılıq səviyyəsinin artırılması daima diqqət mərkəzində saxlanılmaqla yanaşı, məhz ölkənin ən ali qanunu olan Konstitusiyada da təhsillə bağlı maddələr və bəndlər vardır. Belə ki, həmin qanunun müvafiq maddəsində dövlətin əhalinin pulsuz icbari orta təhsil almasını təmin etməsi ilə bağlı öhdəliyi qeyd olunur [1]. Bundan irəli gələrək, ölkəmizdə təhsil sənayesinin maliyyələşdirilməsində əsas yük dövlətin üzərinə düşür, belə ki, vəsaitlər, əsasən, dövlət büdcəsindən ayrılır. Bu vəsaitlərdən əsasən təhsilverənlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına istifadə olunmaqla yanaşı, həm də təhsilalanların da rahat təhsil alma-

larına şərait yaradılır. Belə ki, təhsil infrastrukturu yenidən qurulur, maddi-texniki baza möhkəmləndirilir, istifadə müddəti bitmiş inventarlar yeniləri ilə əvəz olunur yaxud təmir olunub yenidən istifadəyə qaytarılır, o cümlədə bir sıra ölkələrdən fərqli olaraq orta məktəblərdə tədris vəsaitləri şagirdlərə pulsuz verilir. Qeyd olunan istiqamətlər üzrə xərclərin maliyyələşdirilməsi məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitlərin həcmi ildən ilə artmaqdadır. Cədvəl 1-də bunun əyani şahidi olmaq mümkündür.

**Cədvəl 1**

**Təhsil sahəsinə dövlət büdcəsindən ayrılan vəsaitlər**

| İllər | Dövlət büdcəsinin ümumi gəlirləri, mln.manat | Dövlət büdcəsindən təhsil sahəsinə ayrılmış vəsait, mln.manat | Ayrılan vəsaitin dövlət büdcəsində xüsusi çəkisi (%-lə) |
|---|---|---|---|
| 2021 | 26396,52 | 3035,6 | 11,5 |
| 2022 | 30804,20 | 3696,5 | 12,0 |
| 2023 | 36502,65 | 4124,8 | 11,3 |
| 2024 | 36692,74 | 4549,9 | 12,4 |

***Mənbə:*** *https://sai.gov.az/ saytında olan məlumatlar əsasında müəllif tərəfindən hazırlanıb* [2].

Təhsilin inkişafında maliyyələşmə ilə yanaşı, ayrılan vəsaitin həcmi və ondan səmərəli istifadə də olduqca mühüm əhəmiyyət kəsb edir. Belə ki, qeyd olunan iki anlayış bir-birilə qarşılıqlı əlaqədədir. Əgər onlar arasında vəhdət pozularsa inkişafdan danışmaq mümkün deyildir. Ümumiyyətlə, bütün sahələrdə olduğu kimi təhsil sahəsində də səmərəli inkişafın təmin edilməsi üçün bu sahədə uzunmüddətli yol xəritəsini müəyyənləşdirən konsepsiya və strategiya hazırlanmalıdır. Strategiya hazırlanan zaman təhsilin dünyəvilik və millilik prinsipi nəzərə alınaraq, bu sahəni tənzimləyən qanunvericilik aktlarının tələblərinə riayət olunmalıdır. Ölkəmizdə təhsilin inkişaf etdirilməsi məqsədilə atılan zəruri addımlardan biri "Təhsilin İnkişafı Fondu"nun yaradılması olmuşdur. Fondun məqsədi adından da göründüyü kimi təhsilin inkişafına dəstək göstərməkdən ibarətdir. Gəlirləri isə, əsasən, dövlət təhsil müəssisələrinin büdcədənkənar vəsaitləri, ödənişli təhsil xidmətlərinin göstərilməsindən əldə olunan gəlirlərdən ayırmalardan, ianələr, qrantlar, investisyalardan və s. mənbələrdən formalaşır. Fond, həm də, təhsilin inkişafının yol xəritəsinin hazırlanmasında, strategiya və metodikanın müəyyən edilməsində mühüm rol oynayır [3]. Dəqiq inkişaf strategiyası vasitəsilə tələb və təklifi, təhsil sahəsindəki hədəfləri və bu hədəflərə çatmaq üçün lazım olan vəsaitləri müəyyənləşdirmək olar.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, səmərəli təhsil sistemi ölkənin hər bir vətəndaşının bərabər hüquqla təhsilə olan əlçatanlığının təmin edilməsi səviyyəsi ilə ölçülür. Eyni zamanda bu prosesdə sağlamlıq imkanları məhdud uşaqların da təhsili diqqətdə saxlanılmalıdır. Qeyd olunan istiqamət üzrə ölkəmizdə Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında AR qanunu qəbul edilib ki, bunun nəticəsində həmin kateqoriyadan olan şəxslərin də təhsil alaraq işçi qüvvəsi kimi könüllü olaraq, aktiv əmək fəaliyyətinə cəlb edilməsi təmin edilir [4]. Təhsil prosesi həm evdə, həm də təhsil ocaqlarında zəruri şərait yaratmaqla inklüziv formada həyata keçirilir. Bütün bu sadalananlar isə ölkəmizin digər sahələrdə olduğu kimi təhsil sahəsində də beynəlxalq çağrışlara və standartlara uyğun təhsil modelinin qurulmasında maraqlı olduğunu və bu istiqamətdə zəruri işlərin görüldüyünün göstəricisidir.

**Təhsil sahəsinin maliyyələşdirilməsində dünya təcrübəsi**

Təhsil sənayesində yüksək keyfiyyətə nail olmaqdan ötrü, zəngin maliyyə vəsaitlərinə malik olmaq, həmçinin bu vəsaitlərdən qənaətlə və səmərəli istifadə etmək lazımdır. Son illər təhsillə bağlı keçirilən beynəlxalq konfransların, simpoziumların, görüşlərin əsas müzakirə mövzusu təhsil sahəsində vəsaitlərdən səmərəli istifadə edilməsi və xərclərin optimallaşdırılmasından ibarətdir. Vəsaitlərdən səmərəli və qənaətlə istifadə olunması keyfiyyətli təhsilin formalaşmasına əsas verir.

Qeyd etmək lazımdır ki, iqtisadi resursların məhdudluğu şəraitində həmin resurslardan səmərəli istifadə edərək yüksək gəlirlər və səmərə əldə edə bilən mütəxəssislərə ehtiyac vardır ki, bu mənada keyfiyyətli təhsilin təmin edilməsi vacibdir.

Keyfiyyətli təhsilin təşkilində əsas məslələrdən biri də ixtisaslar üzrə qəbul planlarının illər üzrə formalaşdırılmasıdır. Belə ki, xüsusi tədqiqatlar və təhlillərlə növbəti illərdə ehtiyac olacaq ixtisaslar üzrə mütəxəssislərin sayı müəyyənləşdirilməli və buna uyğun olaraq mövcud qəbul planlarında ixtisalara qəbul ediləcək vətəndaşların sayı nizmalanmalıdır. Əks halda bu prosesin kortəbii aparılması nəticəsində gələcəkdə xeyli sayada işsiz mütəxəssislər, yaxud təhsil aldığı sahə üzrə işləməyən işçilər, yaxud əlavə təhsil almağa məcbur olan vətəndaşlar formalaşacaqdır. Bütün bu qeyri-müəyyənliyin qarşısının alınması üçün dövlət tərəfindən ixtisaslar üzrə zəruri planlamalar aparılmalı və təhsil müəssisələri arasında qəbul planları ədalətli bölüşdürülməlidir. Bunun nəzərə alınması və işlək mexanizmə gətirilməsi maliyyə resurslarından səmərəli istifadə olunmasının bir elementi kimi mühüm nəticələr verə bilər.

Qeyd etdiyimiz kimi, təhsilin inkişaf etdirilməsi və sisitemin səmərəli qurulması olduqca vacib məsələdir. Bu mənada beynəlxalq təcrübədə bir sıra təhsil modellərinə, həmçinin bu modellərin maliyyələşdirilməsinin müxtəlif formalarına rast gəlinir. Bütün maliyyələşdirmə mexanizimlərinin əsasında hədəflənən inkişafa nail olmaqdan ötrü, ayrılmış vəsaitlərdən təyinatı üzrə səmərəli və qənaətlə istifadə edilməsi olduqca mühüm şərtdir. Dünya təcrübəsində təhsil sənayesinin maliyyələşdirmə mənbələrini aşağıdakı sxem 1-dəki kimi təsnifləşdirmək olar:




**Sxem 1.** Dünya təcrübəsində təhsilin maliyyə mənbələri
***Mənbə:*** *müxtəlif məlumatlar əsasında müəllif tərəfindən hazırlanıb*

**Əhalinin təhsilə ayırdığı vəsait** hesabına təhsilin maliyyələşdirilməsi dedikdə, bir sıra ölkə əhalisinin özlərinin aylıq gəlirlərindən müəyyən miqdarda təhsil sahəsinə xərclədikləri vəsaitlər nəzərdə tutulur. Bu istiqamət üzrə maliyyələşdirmə müvafiq təhsil müəssisələrinin büdcələrinə əhali tərəfindən ödənilən vəsaitlər və ya ailənin təhsil alan üzvünə çəkilən xərclər formasında özünü göstərir. Təhsil müəssisələrinin büdcəsinə əhali tərəfindən ödənilən vəsaitlərin xərclənməsi üzərində səmərəli nəzarətin təmin edilməsi məqsədilə ictimai nəzarət mexanizminin qurulması zəruridir.

**Beynəlxalq təhsil fondlarının** vəsaitləri hesabına təhsil sahəsinin maliyyələşdirilməsi, əsasən, iqtisadi cəhətdən zəif inkişaf edən ölkələrə minimum tədris ehtiyaclarının ödənilməsi məqsə-

dilə ayrılan vəsaitlər şəklində özünü göstərir. Bununla yanaşı sözügedən fondlar ETT-nin nailiyyətlərinin, yeni elmi kəşflərin, o cümlədən yeni təhsil infrastrukturlarının yaradılmasının maliyyələşdirilməsində də maraqlıdırlar. Bu fondlar bir sıra hallarda ölkələrin təhsil sahəsinə dəstəklərini, onlara ayırdığı aşağı faizli və uzunmüddətli kreditlər formasında da həyata keçirirlər.

**Qrant layihələri** ilə təhsilin maliyyələşdirilməsi dedikdə, hər hansı təhsil institutlarının elan olunmuş müsabiqədə qalib gələrək büdcələrinə vəsait cəlb etməsi nəzərdə tutulur. Qrantlar həm dövlət büdcəsi hesabına, həm də özəl institutlar tərəfindən maliyyələşdirilə bilər. Bunlara misal olaraq, təhsil qrantlarını, tələbə qrantlarını və s. göstərmək olar.

**Repetitorluq** hesabına təhsilin maliyyələşdirilməsi dedikdə, ənənəvi təhsildən başqa konkret istiqamətlər üzrə mütəxəssis hazırlıqları nəzərdə tutulur. Qeyd olunan istiqamət üzrə təhsil verilməsi qruplar üzrə təşkil olunmaqla yanaşı, həm də müəyyən ödənişlər müqabilində həyata keçirilir. Son hesablamalara görə bir sıra ölkələrdə bu istiqamətdə əldə olunan gəlir, həmin ölkələrdə ÜDM-in 1 faizinə bərabərdir.

**Publik hüquqi şəxs və ya özəl təhsil müəssisələri** – baxmayaraq ki, beynəlxalq ədəbiy-yatda sözügedən istiqamət eyni başlıq altında göstərilir, lakin fikrimizcə bu anlayışlar əsaslı şəkildə bir-birindən fərqlənir. Xüsusilə də, bunu öz ölkəmizin təcrübəsindən çıxış edərək deyə bilərik. Belə ki, özəl təhsil müəssisələri-bir mənalı olaraq dövlət tərəfindən maliyyə vəsaiti ayrılmadan yalnız şəxsi vəsaitlər hesabına təhsilin maliyyələşdirilməsi formasıdır. Publik hüquqi şəxs qismində fəaliyyət göstərən təhsil müəssiələrin də isə maliyyələşdirmə prosesində həm dövlət vəsaitləri, həm də qurumun öz gəlirlərindən formalaşan vəsaitlərdən istifadə olunur [5]. Son illər ölkəmizdə xüsusilə də ali təhsil müəssisələrinin publik hüquqi şəxs qismində təşkil edilməsi geniş yayılmışdır. Bunlara misal olaraq Azərbaycan Texniki Universitetini, Mingəçevir Dövlət Universitetini və s. göstərmək olar.

Qeyd etmək lazımdır ki, təhsilin beynəlxalq standartlara uyğun təşkili prosesində onun fəaliyyətinin maliyyə cəhətdən şəffaf təşkil edilməsi, səmərəli gəlir mənbələrinin müəyyən edilməsi, çevik idarəetmə sisteminin qurulması vacibdir.

Yuxarıda qeyd olunan maliyyələşdirmə formalarının (*repititorluq istisna olmaqla*) demək olar ki, hər biri Azərbaycanın təhsil sənayesində tətbiq olunur. Lakin, bu istiqamətdə dövlət büdcəsinin yükünün azaldılması məqsədilə, yeni mexanizimlərin işlənib hazırlanması, dövlətin nəzarəti altında təhsilin bütün pilləri üzrə özəl investisiyaların cəlb edilməsi prosesinin genişləndirilməsi olduqca zəruri addım olardı. Bundan başqa ölkəmizdə təhsil sahəsinə özəl investorlar tərəfindən sərmayə qoyuluşunun təşviq edilməsi məqsədilə, bu sahədə müxtəlif dövürləri və vergi növlərini əhatə edən vergi güzəştləri də tətbiq olunmaqdadır. Həmçinin, son illərin yeni yanaşması olan “Təhsil Tələbə Krediti” layihəsini də ölkəmizdə təhsil sahəsinin maliyyələşməsi mənbələrindən biri kimi göstərmək olar. Bütün bu təhsilin maliyyələşdirmə mexanizmləri kimi sadalanan istiqamətlər ümumilkdə təhsil sənayesinin inkişafına töhvə verməklə yanaşı, həm də dünya əhalisinin savadlılıq səviyyəsinin artırılmasına xidmət edir.

**Nəticə**

Təhsil sənayesinin inkişaf etdirilməsi ayrı-ayrılıqda dövlətlərin deyil, ümumilikdə dünyanın əsas hədəflərindən biridir. Belə ki, 2015-ci ildə dünyanın 190-dan çox dövləti tərəfindən imzalanan BMT Baş Assambleyasının “Dünyamızın transformasiyası: 2030-cu ilədək Davamlı İnkişaf Gündəliyi” adlı qətnamənin 17 əsas məqsədindən dördüncüsü məhz təhsilə həsr olunub və “inklüziv, bərabər keyfiyyətli təhsilin təmin edilməsi və hamı üçün ömürboyu təhsil imkanlarının təşviqi” kimi formalaşdırılıb. Bu mənada təhsilin beynəlmiləşdirilməsi prosesində ölkələr daha yaxından iştirak etməli, beynəlxalq səviyyədə verilən tapşırıq və göstərişlərə çevik reaksiya verməli və ölkənin qanunvericilik aktlarını beynəlxalq normativ sənədlərin tələblərinə uyğunlaşdırmalıdır. Bununla yanaşı, müasir dövrün çağrışlarına cavab verən yeni ixtisasların yaradılması və mövcud tədris proqramlarının yenilənməsi də zəruri addımlardandır. Bütün bu proseslərdə maliyyə dayanaqlılığının təmin edilməsi də əsas məsələlərdəndir. Həmçinin, mövcud resurslardan səmərəli və şəffaf istifadə edilməlidir. Ümumiyyətlə, bütün sahələrdə olduğu kimi, təhsil sənayesində də maliyyə vəsaitlərini

əldə etməklə yanaşı, ondan səmərəli və qənaətlə istifadə edilməsi, həmçinin xərclərin optimallaşdırılması olduqca vacib məsələlərdəndir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş əlavə və dəyişikliklərlə). -Bakı: Qanun, -2002, -48 s.

2. https://sai.gov.az/

3. “Azərbaycan Respublikası Təhsil nazirliyinin tabeliyində “Təhsilin İnkişafı Fondu”nun yaradılması haqqında” AR Prezidentinin 14 iyul 2021-ci il tarixli Sərəncamı

4. Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının qanunu // 5 iyun 2001-ci ildə qəbul edilmişdir (2024-cü il oktyabrın 8-də qəbul edilmiş əlavə və dəyişikliklərlə).

5. Publik hüquqi şəxslər haqqında Azərbaycan Respublikasının Qanunu // 29 dekabr 2015-ci ildə qəbul edilmişdir (2023-cü il iyulun 6-da qəbul edilmiş əlavə və dəyişikliklərlə).

## FINANCIAL SOURCES OF THE EDUCATION INDUSTRY

**M.F.Gadimov**
State Social Protection Fund
doctoral student of Azerbaijan Technical University

***Abstract***: *Indicators characterizing the education industry and the literacy level of the population are mainly classified according to the criteria adopted in order to ensure international comparability. In terms of comparability, among the main areas whose statistical indicators should be determined are expenses allocated to the field of education, the number of people with higher education per thousand of the population, the cost of education per person, etc. can be shown. In this sense, it is also important to identify and research internationally recognized sources of funding for the education industry. Thus, the basis of quality and efficient education is strong funding. For this reason, in the article, a comparative analysis of funding sources in the field of education applied in several countries of the world and in Azerbaijan was carried out.*

***Keywords:*** *education industry, education funding sources, education system, private educational institution, grant projects*

## ФИНАНСОВЫЕ ИСТОЧНИКИ СФЕРЫ ОБРАЗОВАНИЯ

**М.Ф.Гадимов**
Государственный фонд социальной защиты
докторант Азербайджанского технического университета

***Резюме:*** *Показатели, характеризующие сферу образования и уровень грамотности населения, в основном классифицируются по критериям, принятым в целях обеспечения международной сопоставимости. С точки зрения сопоставимости, среди основных сфер, статистические показатели которых следует определить, - расходы, направляемые на сферу образования, количество людей с высшим образованием на тысячу населения, стоимость образования на человека и т.д. можно показать. В этом смысле также важно выявить и исследовать международно признанные источники финансирования индустрии образования. Таким образом, основой качественного и эффективного образования является сильное финансирование. По этой причине в статье был проведен сравнительный анализ*

*источников финансирования в сфере образования, применяемых в ряде стран мира и в Азербайджане.*

***Ключевые слова:*** *индустрия образования, источники финансирования образования, система образования, частное образовательное учреждение, грантовые проекты*

**Elmi redaktor: i.e.d., prof. V.Əyyubov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 15.04.2025**
**Çapa qəbul edilib: 22.04.2025**